

*Akif Cabbarlı*

# Kənan Hacı - Obrazları ilə dostluq edən yazıçı

**Kənan Hacı imzası müasir poeziyamızda və nəsrimizdə çox yaxşı tanınır və sevilir. Onu digər yazarlarımızdan fərqləndirən, dostları üçün dəyərə mindirən bir çox xüsusiyyətlər var ki, bunlar barədə görkəmli söz adamları, tənqidçilər ara-sıra öz yazılarında, ədəbi icmallarda geninə-boluna bəhs ediblər. Təbii ki, mən də onun bir çox hekayələrini, romanlarını, poeziya nümunələrini oxumuş, təsirlənmişəm. Qonşu olduğumdan təəssüratımı çox vaxt qəzet səhifələrində, saytlarda yox, elə özü ilə söhbətlərimdə, axşam gəzintiləri zamanı polemik uzlaşmalarımda bildirmişəm.**

Kənan məndən yaşca kifayət qədər kiçikdir, amma bu gənc yazar şəxsən mənim üçün hətta gözləmədiyim halda yaşlı bir tələbənin qarşısında meydan sulayan bir gənc müəllim qismində ədəbi mövzularda elə fikirlər, qənaətlər söyləyib ki, sözün əsl mənasında heyran qalmışam. İmzasını çoxdan tanıdığım, hörmət bəslədiyim, mütaliə etdiyim bir müəlliflə görüşümün, tanışlığımın tarixçəsi çox da uzun deyil.

Təxminən beş il əvvəl hansısa yubiley tədbirlərinin birində çox əziz saydığım insan, Əməkdar jurnalist Flora Xəlilzadə əllərimizi bir nöqtədə birləşdirib, - tanış olun, ikiniz də mənim üçün əziz adamsınız, dostlaşın, söhbətiniz tutacaq, çox yaxın olacaqsınız, - demişdi.

Flora xanımın proqnozu düz çıxdı. İş elə gətirdi ki, eyni binada mənzil aldıq. Ölkə prezidentinin hədiyyəsindən ikimiz də eyni zamanda bəhrələndik. 2017-ci ildən bu günə eyni həyətin, bir binanın sakinləriyik. Demək olar ki, hər gün görüşürük, dərd-sərimiz birdir, xoş saatlarımızı, dəqiqələrimizi bərabər paylaşırıq. Kənan çox səbirli, ədalətli, geniş erudisiyalı oğlandır. Hər kəsin öz dili ilə danışmağı bacarır. Naqqalları, dayaz düşüncəliləri, Kənanın öz ifadəsi ilə desək, ünsiyyət problemi olanları belə səbirlə dinləyir, sonra söhbəti elə məcraya yönəldir, belələrini ustalıqla elə başa salır ki, getsinlər öz işləri ilə məşğul olsunlar, hələ ki, bir stasionar işi, vəzifəsi olmayan yazıçıya imkan versinlər ki, gedib oturub yazı-pozusunu eləsin, halalca çörəyini qazansın.



***Əslində, Kənan qazancını heç vaxt hansısa qəzetdən, jurnaldan göndərilən az-çox qonorarla ölçmür. O, ədəbi yaradıcılığa jurnalistikadan gəlib. "Ədalət" və "İki sahil" qəzetlərinin parlament müxbiri olub, sayt redaktoru kimi fəaliyyət göstərib. Bu illərdə özünə çoxlu dost, həmdəm qazanıb. İndi də öz dostlarına, kitablarının nəşrinə yardımçı olanlara və yazdıqlarını diqqətlə oxuyub dəyər verənlərə güvənir. Bakıda doğulsa da, bu şəhərin acılı-şirinli günlərini, illərini yola versə də, ölkəmizin bütün regionlarında xətrini istəyən, səsinə səs verən dostları, həmkarları, qələm yoldaşları var. Deyir ki, nə qədər bakılıyamsa, bir o qədər şəkili, gəncəli, qəbələliyəm. Bir dəfə xanım tənqidçilərdən biri onu öz yazısında "Bakı ədəbiyyatının tanınmış nümayəndəsi" kimi xarakterizə etmişdi. Kənan bu termini qəbul eləməmişdi, bildirmişdi ki, Bakı ədəbiyyatı, Gəncə ədəbiyyatı, Lənkəran nəsri kimi ifadələr qəbuledilməzdir, ümumilikdə şimallı-cənublu Azərbaycan ədəbiyyatı, söz sənəti var və biz hamılıqla sözümüzün, elmi, fəlsəfi və ədəbi düşüncələrimizin yorulmaz, fədakar daşıyıcıları olmalıyıq.***

Kənan Hacı statistik göstəricilərə görə başqalarından nə qədər irəli, yaxud geridir, deyə bilmərəm - indiyədək 14 kitabı işıq üzü görüb, bu kitabların ikisində poeziya nümunələri toplanıb.

Deməli, nəsrimiz udub, poeziyamız isə arasıra yenə şeirlər yazdığı üçün Kənan kimi bir şairi də qazanıb desək, yanılmarıq. Onun "Sonuncu dərviş", "Rəqqasə", "Fironun dəftəri" əsərləri, "Hacı İsgəndər" tarixi romanı, "Yeraltı külək", "Quş üçün karusel" povestlər toplusu zənnimcə müasir Azərbaycan ədəbiyyatını zənginləşdirən ədəbi faktlar kimi olduqca dəyərlidir.

Öz iç dünyasını, acılı-şirinli xatirələrini, ətrafında baş verən irili-xırdalı hadisələri bütün təfərrüatı ilə yazıya gətirən gənc nasiri oxuyarkən adamın yadına Dostoyevski, Şoloxov, Folkner, İsa Hüseynov, İsi Məlikzadə, Mövlud Süleymanlı, Orxan Pamuk kimi məşhur söz adamları düşür. Bu isimlərdən, eləcə də adlarını çəkmədiyim bir çox məşhur yazarlardan təsirlənmək təbiidir və hər bir nasirin "başına gələ bilər". Məsələnin digər tərəfi məhz ondadır ki, Kənan Hacı özünə ustad, müəllim hesab etdiyi yazıçıların müəyyənləşdirdiyi ədəbi magistralda yolun tən ortası ilə şütüyür, piyada cığırlarına məhəl qoymur. Onu oxuculara sevdirən də bu cür orijinallığı, təkrarsızlığıdır.

Kənanın əsərlərində üç obraz yaddaşında dərin izlərlə qalıb - Firon, student və dərviş obrazları. O, bu obrazları sevə-sevə yaradıb, qəlbində onlara əbədi yer ayırıb. Söz düşəndə də deyir ki, bu obrazlar sadəcə hansısa personaj rolunda deyillər - onlar mənim dostlarımdır, əzizlərimdir, sevincimizi, kədərimizi yarıbayarı bölürük. Təki məndən inciməsinlər.

Çox maraqlı yanaşmadır. Klassik roman ənənələrinə uyğun münasibətdir. Həyatdakı dostlarına olduğu kimi, yaratdığı obrazlara da bu cür dostcasına ülfət göstərmək, məhəbbət sergiləmək Kənan Hacının nəsr yaradıcılığındakı gələcək uğurlarından, Azərbaycan oxucusu tərəfindən həmişə sevilə-sevilə qarşılanacağından soraq verir.

**Aprelin 3-ü dostumuz və qardaşımız Kənan Hacının ad günüdür - 45 yaşı tamam olur. Amma xatırladım ki, həmin tarix Hacıyevlər ailəsində ikiqat bayramdır - Kənan bəyin xanımı, BDU-nun müəllimi və bir çox şeir, hekayə və publisistik yazıların müəllifi kimi tanıdığımız İlhamə xanımın da doğum günü məhz martın 3-nə təsadüf edir. Ad gününüz, şad gününüz mübarək, əziz qonşularımız! Yazın-yaradın, həmişə birlikdə olun.**

***P.S.** Bu yazının ilk variantı martın 2-də əsən güclü xəzrinin qurbanı olub. 20-ci sahə dairəsində avtobusdan düşən bir məktəbliyə kömək edərkən əlimdəki qovluğu caynağına alıb hansısa dalanın künc-bucağında görünməz edən külək Kənan Hacı barədə düşüncələrimə yenidən nəzər salmaq şansı verdi. Necə alındı, deyə bilmərəm. Kənan özü bu barədə eşidəndə bircə onu dedi ki, eyib etməz, küləklər təki dərd-sərimizi, narahatçılığımızı və nigarançılığımızı qanadlarına alıb uzaqlara, lap uzaqlara aparsın.*

Ədalət.- 2020.- 4 mart.- S.3.

t

u